# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ
# QƏRAR

№ 15/09

**Bakı şəhəri** **05 iyun 2025-ci il**

**Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 153-VIIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar normativ hüquqi aktların kolliziyasının aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə"nin 9.6-cı və 14.4-cü bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 153-VIIQD nömrəli Qanununun icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 9 aprel tarixli 205s nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**qərara alır:**

1. "Təhqiqatı və ibtidai istintaqı hesabat ilində tamamlanmış işlər və materiallar üzrə cinayət törətmiş şəxslər barədə" 2 №-li (illik, yarımillik) rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstəriş haqqında" Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2015-ci il 14 yanvar tarixli 5/09 nömrəli qərarında aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin qərarla təsdiq edilmiş "Təhqiqatı və ibtidai istintaqı hesabat ilində tamamlanmış işlər və materiallar üzrə cinayət törətmiş şəxslər barədə" 2 №-li (illik, yarımillik) rəsmi statistika hesabatı forması üzrə:

1.1.1. "Cinayət törətmiş şəxslərin yaş həddinə görə tərkibi" və "Cinayət törətmiş şəxslərin sosial vəziyyəti və təhsilinə görə tərkibi" cədvəllərinin 57-ci sətirlərində ikinci halda "və" sözü "və ya" sözləri ilə əvəz edilsin;

1.1.2. "Qrup halında, sərxoş vəziyyətdə və narkotik vasitələrin və ya digər güclü təsir edən maddələrin təsiri altında cinayət törətmiş, əvvəllər cinayət məsuliyyətinə cəlb edilmiş şəxslər barədə məlumat" cədvəlinin 36-cı sətrində ikinci halda "və" sözü "və ya" sözləri ilə əvəz edilsin;

1.2. həmin qərarla təsdiq edilmiş "Təhqiqatı və ibtidai istintaqı hesabat ilində tamamlanmış işlər və materiallar üzrə cinayət törətmiş şəxslər barədə" 2 №-li (illik, yarımillik) rəsmi statistika hesabatı formasının doldurulmasına dair göstəriş"in "I bölmə. Cinayət törətmiş şəxslərin yaş həddinə görə tərkibi" bölməsinin 57-ci sətrə dair hissəsində ikinci halda "və" sözü "və ya" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2017-ci il 11 oktyabr tarixli 23/09 nömrəli qərarı ilə təsdiq edilmiş "Cinayətin növləri üzrə məhkumların sayı haqqında" 10-a №-li (yarımillik, illik) rəsmi statistika hesabatı formasının 179-cu sətrində ikinci halda "və" sözü "və ya" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2020-ci il 29 oktyabr tarixli 24/09 nömrəli qərarı ilə təsdiq edilmiş "İstintaq işi haqqında" 1-E №-li (yarımillik, illik) rəsmi statistika hesabatı formasının I bölməsinin "1-ci cədvəl. Cinayətin növləri üzrə işlər (təkrarsız)" cədvəlinin 32-ci sətrində ikinci halda "və" sözü "və ya" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2020-ci il 29 oktyabr tarixli 25/09 nömrəli qərarı ilə təsdiq edilmiş "Törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatların baxılmasına dair" 2-E №-li (yarımillik, illik) rəsmi statistika hesabatı formasının I bölməsinin 29-cu sətrində və II bölməsinin 28-ci sətrində ikinci halda "və" sözü "və ya" sözləri ilə əvəz edilsin.

5. Qərar qəbul edildiyi gündən üç gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

6. Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildikdən sonra 72 saat müddətində rəsmi dərc edilməsi üçün zəruri tədbirlər görülsün.

7. Aparatın Sosial statistika şöbəsinə tapşırılsın ki, bu qərardan irəli gələn məsələləri həll etsin.

8. Qərarın icrasına nəzarət Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinə həvalə edilsin.

**Sədr** **Tahir Budaqov**